GESCO ASC

# AYLIQ İCMAL

İyul



# MÜNDƏRİCAT

## İnsan resursları


Vəzifədə yüksəliş 04

Xidmətdə fərqlənənlər 06


## Əməliyyat fəaliyyəti


Ayın fəaliyyəti 09

Statistika 10


## Ayın xəbərləri


Xəbərlər 12


## Mühafizəyə dair


Mühafizənin təmini 15



# İNSAN RESURSLARI

**Dəyər verdiklərinizi qoruyuruq!**

# VƏZİFƏDƏ YÜKSƏLİŞ



## Rövşən Bağırov

**Bölmə müdiri**

Baş mütəxəssis vəzifəsindən bölmə müdiri vəzifəsinə keçirilmişdir.



## Aysel Abdullazadə

**Keyfiyyətə nəzarət üzrə mütəxəssis**

Direktor köməkçisi vəzifəsindən keyfiyyətə nəzarət üzrə mütəxəssis vəzifəsinə keçirilmişdir.



## Fərəh Şirinova

**Direktor köməkçisi**

Kargüzar vəzifəsindən direktor köməkçisi vəzifəsinə keçirilmişdir.



## Etibar İsmayılzadə

**Növbə rəisi**

Mühafizəçi vəzifəsindən növbə rəisi vəzifəsinə keçirilmişdir.



## Ceyhun Əhmədov

**Növbə rəisi**

Mühafizəçi vəzifəsindən növbə rəisi vəzifəsinə keçirilmişdir.



## Mirnəsir Seyidov

**Növbə rəisi**

Mühafizəçi vəzifəsindən növbə rəisi vəzifəsinə keçirilmişdir.



## Röyyal Cəfərov

**Baş mühafizəçi**

Mühafizəçi vəzifəsindən baş mühafizəçi vəzifəsinə keçirilmişdir.



## Sənan Həsənov

**Baş mühafizəçi**

Mühafizəçi vəzifəsindən baş mühafizəçi vəzifəsinə keçirilmişdir.



## Samir Ələsgərov

**Baş mühafizəçi**

Mühafizəçi vəzifəsindən baş mühafizəçi vəzifəsinə keçirilmişdir.



## Toğrul Hüseynov

**Baş mühafizəçi**

Mühafizəçi vəzifəsindən baş mühafizəçi vəzifəsinə keçirilmişdir.



## Bəhram İzzətov

**Baş mühafizəçi**

Mühafizəçi vəzifəsindən baş mühafizəçi vəzifəsinə keçirilmişdir.



## Məhərrəm Salmanov

**Baş mühafizəçi**

Mühafizəçi vəzifəsindən baş mühafizəçi vəzifəsinə keçirilmişdir.



## Təbriz İsaqov

**Baş mühafizəçi**

Mühafizəçi vəzifəsindən baş mühafizəçi vəzifəsinə keçirilmişdir.



## Yusif Əmiraslanov

**Baş mühafizəçi**

Mühafizəçi vəzifəsindən baş mühafizəçi vəzifəsinə keçirilmişdir.

# XİDMƏTDƏ FƏRQLƏNƏNLƏR

Əməkdaşlarımız ay ərzində əmək fəaliyyətini yüksək peşəkarlıqla icra etdikləri üçün mükafatlandırılıblar.



**Rəşad Hacıyev**
Xidmət rəisi



**Vüsal Eynullayev**
Növbə rəisi



**Əli Mirzəyev**
Mühafizəçi



**Rəna Süleymanova**
Mühafizəçi



**Eldar Abdullayev**
Mühafizəçi



**Tural Səfərov**
Mühafizəçi



**Gülnar Rzayeva**
Mühafizəçi



**Niftəli Xəlilov**
Mühafizəçi



**Sənan Muxtarov**
Mühafizəçi



**Emin Gəncəvi**
Mühafizəçi



**Mirsəməd Cəfərov**
Mühafizəçi



**Tural Osmanov**
Mühafizəçi

# ƏMƏLİYYAT FƏALİYYƏTİ





"Müəllimlərin işə qəbulu üzrə müsabiqə"nin mühafizəsi

# AYIN FƏALİYYƏTİ

İyul ayında təşkil edilən "Müəllimlərin işə qəbulu üzrə müsabiqə"nin mühafizəsi "GESCO" ASC tərəfindən təmin olunub.

Hər il baş tutan və minlərlə insanı əhatə edən müsabiqədə əməkdaşlarımız iştirakçıların yoxlanılaraq zala buraxılmasını, giriş-çıxışa nəzarəti təmin edib.

# STATİSTİKA


İyul
17
14
13
1
22
5
Zəbtetmə
Qanunsuz tikili
Oğurluq
Münaqişə
Digər hallar
Yanğın



# AYIN XƏBƏRLƏRİ



# XƏBƏRLƏR

12 iyul tarixində "GESCO" ASC-nin rəhbər heyəti üçün "Mühafizədə innovativ strategiyalar" tədbiri keçirilib. Şirkətin yarımillik fəaliyyətini əhatə edən tədbirdə yanvar-iyun ayları ərzində görülmüş işlər, əldə olunmuş nailiyyətlər və mövcud çətinliklər müzakirə olunub. Tədbir zamanı struktur üzrə rəhbər heyətin hesabat xarakterli məruzələri, təklifləri dinlənilib, daha sonra qarşılıqlı əməkdaşlığı gücləndirməyə xidmət edən qrup işləri icra olunub.

Tədbirin məqsədi şirkətin mühafizə işində hədəf və strategiyalarının müəyyənləşdirilməsi, əməkdaşlar arasında komanda ruhunun inkişaf etdirilməsi, iştirakçılıq və kommunikasiyanın genişləndirilməsidir.




"Mühafizədə innovativ strategiyalar" tədbiri

# "Yay təcrübə proqramı" başa çatıb



May ayında start verilən və insan resursları sahəsində bilik və bacarıqlarını təkmilləşdirmək istəyən şəxslər üçün keçirilən təcrübə proqramı yekunlaşıb. 3 ay ərzində şirkətin İnsan resursları şöbəsində təcrübə mübadiləsi aparan iştirakçılara təcrübə müddətini uğurla başa vurduqları üçün müvafiq sertifikat təqdim olunub.

Eyni zamanda proqramı uğurla bitirən namizədlərdən Günəş Məmmədova və Hikmət Məmmədov şirkətin İnsan resursları şöbəsində kiçik mütəxəssis vəzifəsinə işə qəbul ediliblər.

Təcrübə proqramının iştirakçılarına gələcək fəaliyyətlərində uğurlar arzulayırıq!




# MÜHAFİZƏYƏ DAİR

# Mühafizənin təmini

Fiziki mühafizə özü-özlüyündə icazəsiz girişin qarşısını almaq, aktivləri qorumaq və insanların təhlükəsizliyini təmin etmək kimi müxtəlif tədbirləri ehtiva edir. Mühafizə zamanı bu tədbirləri mütəmadi şəkildə yenidən qiymətləndirmək və yeni təhdidlərə uyğunlaşdırmaq vacibdir. Bu mənada mühafizənin daha keyfiyyətli təmini üçün atılacaq addımlar bunlardır:

**Risklərin qiymətləndirilməsi**
Zəif nöqtələri və boşluqları müəyyən etmək üçün obyektin hərtərəfli qiymətləndirilməsi aparılmalıdır. Bu, nəzərə alınmalı xüsusi riskləri əvvəlcədən anlamağa kömək edir.

**Giriş-çıxış nəzarəti**
Yalnız səlahiyyətli şəxslərin girişini təmin etmək üçün kart oxuyucuları, biometrik skanerlər və elektron kilidlər kimi girişə nəzarət sistemləri quraşdırmaq vacibdir. Müxtəlif sahələrə kimin və hansı şəraitdə giriş-çıxışı olduğunu müəyyən edən idarəetmə siyasəti müəyyənləşdirmək lazımdır.

**Perimetrdən mühafizə**
İcazəsiz girişin qarşısını almaq üçün hasar, qapı, dayaq kimi fiziki maneələr quraşdırmaq, perimetri izləmək, potensial müdaxilələri dayandırmaq üçün təhlükəsizlik kameraları və hərəkət sensorlarından istifadə etmək riskləri azalda bilir.

**Nəzarət sistemləri**
Əsas ərazilərə nəzarət etmək üçün strateji yerlərdə yüksək keyfiyyətli CCTV kameraları quraşdırmaq zəruridir.

**Mühafizə personalı**
Müntəzəm patrullar aparmaq, kameralara nəzarət etmək və hadisələrə lazımi müdaxiləni etmək üçün təlim keçmiş mühafizə personalı mühüm şərtdir.

**Qonaqların qəbulu**
Bütün ziyarətçilərin giriş çıxışına və qonaq vəsiqələri taxmasına nəzarət edən idarəetmə siyasəti olmalıdır.

**Fiziki maneələr**
Qeyri-qanuni yollarla girişin qarşısını almaq üçün kilidli qapı və turniket kimi fiziki maneələrdən istifadə etmək lazımdır.

**Təhlükəsizlik mədəniyyəti**
Əməkdaşlar, podratçılar və ziyarətçilər arasında təhlükəsizlik mədəniyyətinin inkişaf etdirilməsinə zaman ayırmaq, əməkdaşlara şübhəli fəaliyyət və şəxsləri tanıma yollarını öyrətmək atılacaq addımlardan biridir.

**Fövqəladə hallara hazırlıq**
Müxtəlif situasiyalar üçün fövqəladə hallara cavab tədbirləri hazırlamaq və əməkdaşları bu situasiyalarda öz rollarını bilmələri üçün müntəzəm məlumatlandırmaq vacibdir.

**Kibertəhlükəsizlik tədbirləri**
Giriş kartı sistemləri kimi rəqəmsal giriş nöqtələrini sındırma hallarından və ya icazəsiz girişdən qorunmaq, təhlükəsizlik sistemlərinin uzaqdan manipulyasiyasının qarşısını almaq üçün kibertəhlükəsizlik tədbirlərinin olması əhəmiyyətlidir.

**Daimi audit**
Zəif cəhətləri və təkmilləşdirilməli sahələri müəyyən etmək üçün mütəmadi olaraq yoxlamalar aparmaq, yaranan təhdidlər və dəyişən şərtlər əsasında təhlükəsizlik protokollarını davamlı yeniləmək şərtdir.

GESCO ASC

## BİZİMLƏ ƏLAQƏ

+994 12 310 05 77
+994 55 207 00 40

office@gesco.az

www.gesco.az

Bakı, Ziya Bünyadov prospekti, 1965-ci məhəllə, Çinar Park Biznes Mərkəzi